**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət və Keyfiyyətin idarəedilməsi üzrə komitənin iclasının**

**P R O T O K O L U**

Bakı şəhəri №1 29 aprel 2021-ci il

**İştirak etdilər:**
**Komitənin sədri:** Naib Yusifov
**Komitənin katibi** Səbinə Gülməmmədova

- **Komitənin üzvlər:** Yusifov Naib, İbrahimov Elnur, Elşən Abdulbağıyev, Məcid Məcidov, Nazim Axundov, Aygün Səfərova
- **Dəvət olunanlar:** Vəlizadə Səftər, Axundov Nihad, Hacıəzizov İlham, Əliyev Azər, İsmayılov Elxan, Əliyev Rüfət, Rəsulzadə Elnur, "Biznes Audit" MMC-nin direktoru Əliyev Məhərrəm Fayaz oğlu

Komitənin katibi S.Gülməmmədova çıxış edərək bildirdi ki, yetərsay vardır. İclas qərar qəbul etməyə səlahiyyətlidir.

**Gündəlik**

Auditorlar Palatasının Şurasının 23 fevral 2021-ci il tarixli 328/6 saylı Qərarının 9-cu bəndində göstərilmiş işlərin və 23 fevral 2021-ci il tarixli 328/7 saylı Qərarı ilə təsdiqlənmiş "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2021-ci il üçün Plan-Qrafik" üzrə sərbəst auditorlar Əliyev Aftandil Adıgözəl oğlu və Əvəzov Kamil Şərail oğlunun apardığı audit fayllarının Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin (bundan sonra Komitə) müfəttişləri tərəfindən aparılmış monitorinqlərinin nəticələrinin müzakirəsi barədə

**Çıxışlar**

**Çıxış etdi:** – Yusifov Naib (Komitənin sədri) gündəliyi elan etdi və gündəlikdəki məsələ ilə bağlı çıxışında Auditorlar Palatasının Şurasının 23 fevral 2021-ci il tarixli 328/6 saylı Qərarının 9-cu bəndində göstərilmiş bütün işlər qeyd olunmalı 2020-ci ildən qalanlar işlərin ("Biznes Audit" MMC, "Tax, Audit & Konsaltinq Servis" MMC, "Azərbeynəlxalq audit xidməti" MMC, "Kermur Audit və Konsaltinq" MMC, "Victoryvvays Audit Consulting" MMC, sərbəst auditorlar İbrahimov Elnur Elxan oğlu, Bəşirov Şərif Miri oğlu, İsayev Telman Mabud oğlu və Axundov Vaqif Xəlil oğlu) və 23 fevral 2021-ci il tarixli 328/7 saylı Qərarı ilə təsdiqlənmiş "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin

monitorinqinin həyata keçirilməsi üzrə 2021-ci il üçün Plan-Qrafik” üzrə sərbəst auditorlar Əliyev Aftandil Adıgözəl oğlu və Əvəzov Kamil Şərail oğlunun apardığı audit fayllarının Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin müfəttişləri tərəfindən aparılmış monitorinqlər barədə Komitə üzvlərini məlumatlandırdı.

**Çıxış etdi:** İbrahimov Elnur (Komitənin sədr müavini) çıxışında bildirmişdir ki, “Azərbaynəlxalq audit xidməti” MMC və Kermur Audit və Konsaltinq MMC təşkilatlarının aparılmış monitorinqlərinin nəticələri barədə 3 (üç) kimi qiymətləndirilmələrini məruzə etmişdir.

**Çıxış etdilər:** – Komitənin müfəttişləri**:** Vəlizadə Səftər sərbəst auditor Əliyev Aftandilin 2 (iki) kimi Tax Audit MMC-nin və sərbəst auditor Axundov Vaqif Xəlil oğlunun 3 (üç) kimi qiymətləndirilməsini bildirmişdir. Əlavə olaraq qiymətləndirmələrindən narazı olan yoxlanılan monitorinq subyektlərinin qaydalarla ciddi şəkildə tanış olmalarını tövsiyyə etmişdir.

**Aygün Səfərova** sərbəst auditor Əvəzov Kamilin sənədləri təqdim etməkdən kobud şəkildə imtina etdiyini və bu səbəbdən də bu barədə akt tərtib edildiyini və bunun 2 (iki) qiyməti kimi qiymətləndirilməsini bildirmişdir. Eyni zamanda Kamil Əvəzovun keçən il sənədləri təqdim etmədiyinə görə yoxlamanın aparılması mümkün olmamasını və 2021-ci ili “Plan Qrafik”ə salınmasını qeyd etdi.

**Axundov Nihad** “Biznes Audit” MMC-nin və sərbəst auditor İsayev Telmanın monitorinqinin 2 (iki) kimi qiymətləndirilməsini və audit fayllarında ciddi nöqsanların olduğunu, həmçinin Victoryvaysın 2 (iki) qiymətlənməsini bildirmişdir.

**Hacıəzizov İlham** çıxışında Bəşirov Şərifin monitorinqinin 3 (üç) kimi qiymətləndirilməsini bildirmişdir.

**Çıxış etdi:** Əliyev Məhərrəm “Biznes Audit” MMC-nin direktoru (Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitəsi tərəfindən monitorinqi aparılan subyekt) aparılan monitorinqdən 2 (iki) qiymətinin alınması ilə bağlı narazı olduğunu bildirmişdir.

**Komitə üzvləri** Naib Yusifov, Elnur İbrahimov, Elşən Abdulbağıyev, Nazim Axundov, Aygün Səfərova, Məcid Məcidov (Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin üzvləri) heç bir iradlarının olmadığını, monitorinqlərin çox düzgün qaydada aparılmasını bildirmişdirlər.

Gündəlikdə duran məsələlər səsə qoyuldu və yekdilliklə qəbul edildi.

**Q Ə R A R A  A L I R :**

1. Müfəttişlər tərəfindən aparılmış monitorinqlərin nəticələrinə dair tərtib edilmiş hesabatlarda monitorinq subyektlərinə təklif olunmuş qiymətlər təsdiq edilsin;
2. Təsdiq edilmiş hesabatlar Auditorlar Palatasının Şurasının növbəti iclasında müzakirə edilməsi üçün aidiyyatı üzrə təqdim edilsin;
3. Müfəttişlər tərəfindən təklif edilmiş aşağıdakı qiymətlər təsdiq edilsin:
   - Sərbəst auditor İbrahimov Elnur Elxan oğlu – 5 (qənaətbəxş);

- 3 audit təşkilatı (“Tax, Audit & Konsaltinq Servis” MMC, “Azərbeynəlxalq audit xidməti” MMC və “Kermur Audit və Konsaltinq” MMC) və 2 sərbəst auditorlar (Bəşirov Şərif Miri oğlu və Axundov Vaqif Xəlil oğlu) – 3 (“C” Qismən qənaətbəxş);
- 2 audit təşkilatı (“Biznes Audit” MMC və “Victoryvvays Audit Consulting” MMC) və 2 sərbəst auditorlar (İsayev Telman Mabud oğlu və Əliyev Aftandil Adıgözəl oğlu) - 2 (“D” Qeyri qənaətbəxş).

4. Sənədləri təqdim etməkdən imtina etmiş sərbəst auditor Əvəzov Kamil Şərail oğlunun barəsində tərtib edilmiş akt 2 (“D” Qeyri qənaətbəxş) kimi təsdiq edilsin.
5. 2 audit təşkilatı (“Biznes Audit” MMC və “Victoryvvays Audit Consulting” MMC) və 2 sərbəst auditorlar (İsayev Telman Mabud oğlu və Əliyev Aftandil Adıgözəl oğlu) 2 (“D” Qeyri qənaətbəxş) qiyməti ilə almasını nəzərə alaraq onların 2022-ci il ərzində növbədənkənar monitorinqinin aparılması və bununla bağlı 2022-ci ilin Plan-Qrafikinə daxil edilməsi Şuraya tövsiyyə olunsun;
6. Sərbəst auditor Əvəzov Kamil Şərail oğlunun barəsində tərtib edilmiş aktın 2 (iki) qiyməti kimi qiymətləndirilməsini və 2020-ci ildə də sənədlərin verilməsindən imtina etməsini nəzərə alaraq auditor fəaliyyəti üçün verilmiş icazənin geri alınması Şuraya tövsiyyə edilsin.

**İclasın sədri:** **Naib M.Yusifov**

**İclasın katibi:** **Səbinə Gülməmmədova**